AZƏRBAYCAN RESPUBLİKASI KƏND
**TƏSƏRRÜFATI NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**NƏRGİZ ŞAMİL QIZI XALIQOVA**

# MÜASİR ŞƏRAİTDƏ AQRAR BAZARIN TƏNZİMLƏNMƏSİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**5312.01 – "Sahə iqtisadiyyatı"**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**GƏNCƏ – 2014**



Dissertasiya işi Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnsitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər**: iqtisad elmləri doktoru, professor
**Bəyalı Xanalı oğlu Ataşov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Amil Məmmədəli oğlu Məhərrəmov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Afəddin Vahid oğlu Həmidov**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu**

Müdafiə 30 oktyabr 2014-ci il saat $14^{00}$-da Azərbaycan Dövlət Aqrar Universitetinin nəzdində fəaliyyət göstərən fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyaların müdafiəsini keçirən FD.04.013 birləşdirilmiş dissertasiya şurasının iclasında aşağıdakı ünvanda olacaqdır.

Ünvan: Az 2000, Gəncə şəhəri, A.İsgəndərov küçəsi, 64. 2-ci mərtəbə.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat 29 sentyabr 2014-cü ildə göndərilmişdir.

**FD.04.013 birləşdirilmiş dissertasiya şurasının elmi katibi, i.f.d., dosent:** **V.T.Əmrahov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı.** Müstəqil Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının təmin edilməsi aqrar sahənin səmərəli fəaliyyətindən də bilavasitə asılıdır. Inkişaf etmiş dünya dövlətlərinin təcrübəsi göstərir ki, səmərəli aqrar sahə formalaşdırmadan ölkə əhalisinin ərzaq və yeyinti məhsullarına olan tələbatını daxili istehsal hesabına təmin etmək mümkün deyil. Bu isə ölkənin ərzaq müstəqilliyinin zərbə altına düşməsinə, dünya dövlətlərindən ərzaq asılılığının güclənməsinə gətirib çıxarır. Müasir şəraitdə aqrar sahənin səmərəli fəaliyyəti bazar təsərrüfatçılıq sisteminin formalaşdırılması, istehsalın həcminin artırılması və mübadilə prosesinin daim dəyişən bazar konyukturuna uyğunlaşdırılması ilə sıx əlaqədardır.

Ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi milli iqtisadiyyatda formalaşan aqrar bazarın səmərəli fəaliyyətindən, onun iqtisadi vasitələrin köməyilə tənzimlənməsindən əhəmiyyətli dərəcədə asılıdır. Iqtisadiyyatda səmərəli aqrar bazar formalaşdırılmaqla həm ölkə əhalisini ərzaq məhsulları ilə etibarlı şəkildə təmin etmək, həm də kənd təsərrüfatı əmtəə istehsalçıları ilə istehlakçılar arasında qarşılıqlı münasibətlər yaratmaq mümkündür. Təhlil göstərir ki, aqrar bazarın səmərəli fəaliyyətinə bir çox amillərlə yanaşı dövlətin iqtisadi tənzimləmə vasitələri də təsir göstərir. Aqrar bazarın iqtisadi vasitələrlə tənzimlənməsində aparıcı yeri maliyyə-büdcə amilləri tutur. Aqrar bazarın maliyyə-büdcə tənzimlənməsində iki əsas məqsəd ön plana çəkilir. Bunlardan birincisi, dövlətin ərzaq müstəqilliyinə nail olunmasından, ikincisi isə səmərəli aqrar bazar formalaşdırmaqla həm ölkə əhalisinin tələbatını təmin etmək, həm də mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinin istehsalat-maliyyə nəticələrinin rentabellik səviyyəsini yüksəltməkdən ibarətdir.

Aqrar sahədə böhranlı meyillər hələ keçmiş sovet təsərrüfatçılıq sistemində də mövcud olmuşdur. Belə ki, illərin təcrübəsi göstərir ki, planlı iqtisadiyyat şəraitində əhalinin kənd təsərrüfatı və ərzaq məhsullarına tələbatı daha çox daxili istehsal hesabına ödənilsə də, kənd təsərrüfatı əmtəə istehsalçıları olan kolxoz və sovxozlar dövlətdən iri həcmdə dotasiyalar almış, lakin onların bir qismi öz fəaliyyətlərini zərərlə başa vurmuş, daxili bazarı tamamilə doldura bilməmiş, ixracatda öz potensiallarını tam göstərə bilməmişlər. 1990-cı ildə ölkə üzrə 2 trilyon 970 milyard manatlıq kənd təsərrüfatı məhsulları isbazartehsal edilirdi ki, bu zaman qiymət fərqinin ödənilməsinə və istehsalın inkişafına görə kənd təsərrüfatı müəssisələrinə dövlət büdcəsindən 836 milyard manat (ümumi məhsulun dəyərinin 28,1%-i qədər) vəsait ayrılırdı. Beləliklə, planlı sosialist təsərrüfatı sisteminin əsasən kolxoz və sovxozlardan ibarət olan aqrar bölməsi kənd təsərrüfatının potensial



imkanlarından səmərəli istifadə etməyə imkan verməmişdir.

Araşdırmalar göstərir ki, iqtisadi sistemin transformasiyası aqrar sahədə də dövlətin iqtisadiyyata müdaxiləsinin liberallaşdırılması ilə nəticələnmiş, lakin bütün bunlar mahiyyət etibarilə islahatların ilk mərhələlərində daha çox mənfi simptomların yaranmasına gətirib çıxarmışdır. Belə ki, 1994-1997-ci illərdə kənd təsərrüfatı məhsullarının istehsalı 50% (bitkiçilikdə 53,6%, heyvandarlıqda 56,3%) azalmışdır. Həmin dövrdə kənd təsərrüfatı müəssisələrində çoxsaylı vergilərin tətbiqi və eləcə də vergi dərəcələrinin yüksək olması aqrar əmtəə istehsalçılarının tədiyyə qabiliyyətini aşağı salmışdır. Kənd təsərrüfatı müəssisələri 1995-1997-ci illərdə onlar üçün hesablanmış vergilərin yalnız 34,1%-ni, kreditlərin isə 40,5%-ni ödəmək iqtidarında olmuşdur. Aqrar islahatların ilkin dövrlərində əhalinin taxıl məhsullarına olan tələbatının 51%-i, kartof üzrə 33%-i, meyvə üzrə 56%, tərəvəz üzrə 62%-i, bostan məhsulları üzrə 40%-i, ət və ət məhsulları üzrə 29,6%-i, süd və süd məhsulları üzrə 33,9%-i daxili istehsal hesabına ödənilirdi.

Son illər dövlət tərəfindən qəbul edilən məqsədli proqramlar və həyata keçirilən silsilə tədbirlər, xüsusilə aqrar bazarın tənzimlənməsinin maliyyə-büdcə mexanizminin təkmilləşdirilməsində istifadə edilən vasitələr aqrar bazarda yerli istehsalın xüsusi çəkisinin yüksəlməsində əhəmiyyətli rol oynamışdır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", Azərbaycan Respublikası Prezidentinin 23 yanvar 2007-ci il tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" sərəncamı, Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2009-cu il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2009-2013cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilimiş "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı", aqrar bazarın əmtəə təklifini təşkil edən yerli istehsalın həcminin artırılmasına güclü təkan vermişlər. Məhz bütün bunların nəticəsidir ki, 2010-cu ildə ölkə üzrə taxıl məhsullarına olan tələbatının 70%-i, ət və ət məhsulları üzrə 51,8%, süd və süd məhsulları üzrə 77,1%, yumurta üzrə 64,4% daxili istehsal hesabına ödənilmişdir. Bundan əlavə, ölkəmiz son illər kartof, tərəvəz məhsulları üzrə ərzaq təhlükəsizliyini təmin etməklə yanaşı xarici bazarlara məhsul da ixrac edir.

Lakin bütün bunlara baxmayaraq iqtisadiyyatın aqrar sektorunda və eləcə də aqrar bazarda həllini gözləyən problemlər də mövcuddur. Belə ki, aqrar bazarda fəaliyyət göstərən təsərrüfat subyektləri maliyyə və vergi mü-

nasibətləri baxımından nəzərəçarpacaq çətinliklərlə rastlaşırlar. Aqrar bazar subyektlərinin inkişafına istər dövlət büdcəsindən və istərsə də xarici mənbələrdən ayrılan investisiyalar kənd təsərrüfatının davamlı inkişafını təmin etmək iqtidarında deyildir. Bundan əlavə, aqrar sektora ayrılan subsidiyalar aqrar bazar infrastrukturlarının mükəmməl olmaması səbəbindən tam mənası ilə iqtisadi cəhətdən səmərəli fəaliyyət həyata keçirməyə imkan verməmişdir. Eyni zamanda uzun və orta müddətli kredit resursları, qısa müddətə verilən kreditlər də tələbatı ödəmək üçün yetərli olmamışdır. Bank-maliyyə qurumları, eləcə də emal və texniki xidmət müəssisələrinin kənd təsərrüfatı əmtəə istehsalçılarına qarşı inhisarçılıq mövqeləri hələ də özünü göstərir.

Odur ki, aqrar bazarın tənzimlənməsinin maliyyə-büdcə mexanizminin yeni istehsal münasibətlərinin xarakterinə uyğun təkmilləşdirilməsi müasir dövrün ən aktual problemlərindən birinə çevrilmişdir.

**Problemin öyrənilmə vəziyyəti.** Aqrar bazarın formalaşmasında və səmərəli inkişafında maliyyə-büdcə münasibətlərinin yeni təsərrüfatçılıq sisteminin tələblərinə uyğunlaşdırılması mühüm elmi-nəzəri və praktiki əhəmiyyətə malikdir. Aqrar bazara maliyyə-büdcə tənzimləyiciləri vasitəsilə müdaxilə edilməsinə müasir dünya iqtisadiyyatının aparıcı nümayəndələri tərəfindən böyük önəm verilmiş və bu prosesə inzibati – amirlik sisteminin alternativi kimi yanaşılmışdır. Araşdırmalar göstərir ki, xüsusilə transformasiya prosesini yaşayan ölkələrdə adı çəkilən problemlərin həlli yollarının axtarılması daim diqqət mərkəzində olmuş və olmaqdadır.

Müstəqil Azərbaycan Respublikasının iqtisadçı alimlərindən Mahmudov Ə.Ə., Nadirov A.A., Səmədzadə Z.Ə., Nuriyev Ə.X., Salahov S.V., Quliyev E.A., Qarayev İ.Ş., İbrahimov İ.H., Məmmədov A.İ., Gənciyev G.Ə., Alıyev İ.H., Əhmədov A.T., Balayev R.Ə., Hüseynov M.C., Ataşov B.X., Abbasov V.H., Abbasov A.F., və başqaları öz əsərlərində, elmi məqalələrində, apardıqları elmi-tədqiqat işlərində aqrar bazarın formalaşması, inkişafı, onun idarə edilməsi və sahə strukturlarının fəaliyyətinin bu və ya digər aspektlərini tədqiq etmişlər.

Eyni zamanda Məmmədov S.M., Həsənli M.X., Musayev A., Xankişiyev B., Ələkbərov Ə., Xudiyev N. və başqaları iqtisadiyyatın inkişafında maliyyə-büdcə münasibətlərinin roluna dair iri həcmli monoqrafiyalar və elmi məqalələr dərc etdirmişlər.

MDB-nin aqrar iqtisadçı alimlərindən Nikonov A.A., Serova, Borisenko N.P. və başqaları aqrar bazar, onun elmi-nəzəri əsaslarının, səmərəli fəaliyyətinin bu və ya digər aspektlərini öz əsərlərində geniş şəkildə şərh etmişlər.



Lakin gənc müstəqil Azərbaycan Respublikasında aqrar bazarın elmi-nəzəri əsasları, onun milli iqtisadiyyatın inkişafında rolu, eləcə də aqrar bazarın maliyyə-büdcə tənzimləyicilərinin yeni təsərrüfatçılıq sisteminin tələblərinə uyğun olaraq təkmilləşdirilməsinə dair xüsusi tədqiqat işləri az aparılmışdır.

Problemə məhz bu aspektdən yanaşaraq qeyd etmək lazımdır ki, müasir şəraitdə aqrar bazarın tənzimlənməsinin maliyyə-büdcə mexanizminin təkmilləşdirilməsinə dair elmi araşdırmaların aparılmasına böyük ehtiyac vardır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin yerinə yetirilməsində məqsəd aqrar bazarın tənzimlənməsi mexanizminin elmi-nəzəri əsaslarını öyrənməkdən, aqrar bazarın tənzimləmə mexanizminin mövcud vəziyyətini təhlil etməkdən, onun tənzimlənməsində maliyyə-büdcə mexanizmlərinin islahatının əsas istiqamətlərinə dair elmi cəhətdən əsaslandırılmış təkliflər hazırlamaqdan ibarətdir.

Dissertasiya işinin məqsədinə uyğun olaraq aşağıdakı vəzifələr qarşıya qoyulmuş və onların həllinə nail olunmuşdur:

- aqrar bazarın sosial-iqtisadi mahiyyəti və tənzimlənməsini şərtləndirən amillər tədqiq edilmişdir;
- aqrar bazarın tənzimlənməsi mexanizmi müəyyənləşdirilmişdir;
- aqrar bazarın tənzimlənməsində maliyyə-büdcə mexanizmlərinin rolu və əhəmiyyəti əsaslandırılmışdır;
- aqrar bazar münasibətlərinin mövcud vəziyyəti qiymətləndirilmişdir;
- aqrar bazarda əmtəə təklifinin mövcud səviyyəsi və inkişaf təmayülləri araşdırılmışdır;
- aqrar bazarın tənzimlənməsində maliyyə-büdcə mexanizminin müasir durumu təhlil edilmişdir;
- aqrar bazarın maliyyə mexanizminin təkmilləşdirilməsi yolları müəyyənləşdirilmiş və müvafiq tövsiyələr irəli sürülmüşdür;
- aqrar bazarın büdcə-vergi mexanizminin təkmilləşdirilməsi istiqamətləri dəqiqləşdirilmiş və bu yönümdə təkliflər işlənib hazırlanmışdır;
- idxal-ixrac əməliyyatlarının optimallaşdırılması və aqrar bazarın tənzimlənməsində onun rolunun artırılması zərurəti önə çəkilmişdir.

**Tədqiqatın obyekti.** Azərbaycan Respublikasının aqrar-sənaye sferasına daxil olan müəssisələr tədqiqat obyekti olaraq seçilmişdir, o cümlədən sahibkarlıq və kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinə daha geniş yer verilmişdir.

**Tədqiqatın predmetini** aqrar bazarın tənzimlənməsinin maliyyə-büdcə mexanizminin təkmilləşdirilməsi ilə bağlı məsələlər təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın elmi-nəzəri və metodoloji əsaslarını aparıcı aqrar iqtisadçı alimlərin elmi əsərləri və apardıqları elmi-tədqiqat işlərinin ümumiləşdirmələri, Azərbayacan Respublikasında aqrar iqtisadiyyatın, o cümlədən aqrar bazarın inkişafı ilə bağlı ölkə başçısı, Nazirlər Kabineti, Milli Məclis və aidiyyatı icra strukturları tərəfindən qəbul olunmuş normativ-hüquqi aktlar təşkil edir.

Dissertasiya işində statistik təhlil, müqayisə, qruplaşdırma və müşahidə üsullarından istifadə olunmuşdur.

**Tədqiqatın informasiya bazası.** Dissertasiya işində Azərbayacan Respublikası İqtisadiyyat və Sənaye, Kənd Təsərrüfatı, Vergilər Nazirliklərinin, Dövlət Gömrük Komitəsinin, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin, Dövlət Statistika Komitəsinin, elmi-tədqiqat institutlarının, o cümlədən Azərbayacan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun materiallarından, eləcə də aqrar-sənaye kompleksinə xidmət göstərən bank-maliyyə orqanlarının məlumatlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

- milli iqtisadiyyatın təşəkkül tapmasının hazırki mərhələsində aqrar bazarın yeri və rolu müəyyən edilmişdir;
- aqrar bazarın tənzimlənməsinin obyektiv zəruriliyi, aqrar bazarın tənzimlənməsinin müasir şəraitə uyğun forma və metodları müəyyənləşdirilmişdir;
- aqrar bazarın formalaşmasında və inkişafında tənzimlənmənin maliyyə-büdcə mexanizmlərinin rolu və yeri müəyyən edilmişdir;
- mövcud maliyyə-büdcə münasibətləri elmi ardıcıllıqla əsaslandırılmış və onun müxtəlif mülkiyyət mənsublu təsərrüfatçılıq qurumlarına təsiri iqtisadi cəhətdən qiymətləndirilmişdir;
- çoxukladlı iqtisadiyyat şəraitində fəaliyyət göstərən yerli əmtəə istehsalçılarının stimullaşdırılmasında, daxili aqrar bazarın xarici rəqabətin və idxal məhsullarının zərərli təsirlərindən qorunmasında, eləcə də kənd təsərrüfatı və ərzaq məhsulları istehsalının artırılmasında maliyyə-büdcə mexanizminin rolu elmi cəhətdən əsaslandırılmışdır və müvafiq tövsiyələr irəli sürülmüşdür;
- maliyyə-büdcə mexanizminin aqrar-sənaye sferasında xarici-iqtisadi fəaliyyətə təsiri araşdırılmış, aqrar bazarın idxaldan asılılığının azaldılmasına yönəlik elmi – təcrübi əhəmiyyətə malik təkliflər işlənib hazırlanmışdır.

**Dissertasiya işinin təcrübi əhəmiyyəti.** Tədqiqat nəticəsində müəllif tərəfindən işlənib hazırlanmış və elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələrin istehsalata tətbiqi uzun müddət aqrar bazar subyektlərinin və onlarla sıx əlaqədə olan infrastruktur bölmələrinin mənafelərinin qorunmasına, həmçinin səmərəli fəaliyyət göstərmələrinə xidmət edə bilər.



Tədqiqatın elmi-metodoloji müddəaları, təklif və tövsiyələri respublikanın müxtəlif səviyyəli idarəetmə orqanlarının fəaliyyətində də işçi material kimi istifadə oluna bilər.

**İşin sınaqdan keçirilməsi və nəticələrinin istifadə edilməsi.** Dissertasiya işi üzrə tədqiqatın nəticələri Azərbayacan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili Institutunda, Azərbayacan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunda, Azərbaycan Kooperasiya Universitetində keçirilən elmi-praktiki konfransın materiallarında (Bakı, 2007-2013), "Aqrar bazar və onun tənzimlənməsi məsələləri" adlı monoqrafiyada (Bakı, 2007), "Aqrar bazarın iqtisadi vasitələrlə tənzimlənməsi məsələləri" (Bakı, 2012), "Müasir şəraitdə aqrar bazarın tənzimlənməsinin zəruriliyi və onun şərtləndirən amillər" (Bakı, 2012), "Совершенствование механизма регулирования аграрного рынка в современных условиях" (Международный научный журнал, №3, Москва-2013) və s. məqalələrdə öz əksini tapmışdır.

Dissertasiya işinin yerinə yetirilməsilə bağlı əsas nəzəri və təcrübi təkliflər Azərbayacan Respublikası Kürdəmir Regional Aqrar Elm Mərkəzinə və Lənkəran Regional Aqrar Elm Mərkəzinə təqdim olunmuş və istifadə üçün qəbul edilmişdir (22 noyabr 2013-cü il tarixli 18 saylı və 08 aprel 2014–cü il tarixli 44 saylı arayışlar).

**Dissertasiya işi üzrə dərc olunmuş materiallar.** Dissertasiyanın mövzusuna dair ümumi həcmi 9,1 ç.v. olan 12 adda elmi məqalə və tezis dərc edilmişdir.

**Dissertasiya işinin quruluşu və həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olmaqla, 129 səhifədə yazılmışdır. İşdə əyani vasitə kimi mətndaxili 11 cədvəl verilmişdir.

## TƏDQİQAT İŞİNİN QISA MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aктuallığı əsaslandırılmış, problemin öyrənilmə vəziyyəti araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, işin nəzəri-metodoloji əsasları, elmi yeniliyi və təcrübi əhəmiyyəti, tədqiqatın nəticələrinin sınaqdan кeçirilməsi və istifadə edilməsi öz əksini tapmışdır.

**Dissertasiya işinin birinci fəsli «Aqrar bazarın tənzimlənməsi mexanizminin elmi-nəzəri əsasları» adlanır.**

Müstəqil respublikamızda milli iqtisadiyyatın bazar münasibətləri əsasında inkişaf etdirilməsi artıq dövlətin iqtisadi strategiyasının prioritet istiqamətini təşkil edir. Təbiidir ki, bazar münasibətlərinin təşəkkülü iqtisadiy-

yatın bütün sahələrində köklü keyfiyyət dəyişikliklərinin həyata keçirilməsi ilə şərtlənir. Azərbaycan Respublikasının dünya birliyinin tam hüquqlu üzvü olması onun beynəlxalq əmək bölgüsündə fəal şəkildə iştirak etməsinə əlverişli şərait yaratmışdır.

Dünyanın inkşaf etmiş ölkələrinin transformasiya yönümlü təcrübəsi belə qənaətə gəlməyə əsas verir ki, müasir tələblərə əsaslanan milli iqtisadiyyatın formalaşdırılması üçün ilk növbədə milli bazar yaradılmalı və inkişaf etdirilməli onun daxili istehsal hesabına bollaşdırılmasına nail olunmalıdır. İqtisadiyyatın bütün sahələrində hər bir sahənin xüsusiyyətinə uyğun milli bazar modelinin formalaşdırılması və bu bazarlarda dövlətin iqtisadi maraqlarının qorunması qloballaşma faktorlarının aktuallaşdığı şəraitdə xüsusilə aktuallıq kəsb edir.

Bu baxımdan tarixən milli iqtisadiyyatın ən mühüm və ənənəvi sahələrindən olan aqrar bölmədə bazarın özünəməxsus müxtəlifliyinin inkişaf etdirilməsi, aqrar bazarın formalaşdırılması və onun dövlətin strateji maraqlarına uyğunlaşdırılması xüsusilə böyük əhəmiyyət kəsb edir.

Araşdırmalar göstərir ki, iqtisadiyyatın aqrar sektoru istər daxili və istərsə də xarici mənbələrdən formalaşan zərərli təsirlərə yetərincə müqavimət göstərmədiyindən, digər sahələrlə müqayisədə kifayər qədər az gəlirli və aşağı rentabelli sahə kimi xarakterizə olunur. Odur ki, Azərbaycanın hazırkı sabit iqtisadi durumunda kənd təsərrüfatının xüsusiyyətlərinin hər hansı birinin makro səviyyədə nəzərə alınmaması, bütövlükdə aqrar-sənaye sferasının inkişafına mənfi təsir göstərə bilər. Məhz bu səbəbdən də 22 noyabr 2013 – cü il tarixli "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Aqrar bazarın, daha doğrusu onun elementlərinin - tələb-təklif və qiymətin qarşılıqlı əlaqəsi müxtəlif amillər vasitəsilə özünü tənzimləyə bilir. Bu cür mühüm amillərdən biri rəqabətin səviyyəsidir. Belə ki, rəqabət bazar iştirakçılarını daha keyfiyyətli məhsul istehsal etməyə, onu reallaşdırmağa məcbur edir və beləliklə tələb – təklifin tarazlığının təmin olunmasında başlıca təsir vasitələrindən biri kimi bütövlükdə iqtisadiyyatın inkişafına xidmət edir.

Bazar münasibətləri şəraitində dövlət tərəfindən iqtisadi funksiyaların yerinə yetirilməsi makroiqtisadi tənzimləmənin müxtəlif forma və metodları vasitəsilə həyata keçirilir. Müasir bazar təsərrüfatçılıq sistemi şəraitində sosial-iqtisadi proseslər birbaşa (qeyri-iqtisadi), dolayı (iqtisadi), habelə hüquqi vasitələrlə tənzimlənir. Tənzimləmənin iqtisadi metodları bazar münasibətlərinə təsir göstərilməsini özündə əks etdirir. Iqtisadi tənzimləmə



zamanı məcmu tələb və təklifin səviyyəsinə, kapitalın təmərküzləşmə dərəcəsinə, iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirməsinə təsir göstərir.

Tənzimləmənin iqtisadi metodlarına:

- büdcə və fiskal siyasət;
- pul-kredit siyasəti;
- proqnozlaşdırma, proqramlaşdırma və planlaşdırma daxildir.

Aqrar bazar münasibətlərinin iqtisadi vasitələrlə tənzimlənməsi normal normativ-hüquqi bazaya əsaslanan mühitdə daha səmərəli nəticələr verir. Məlumdur ki, iqtisadi vasitələrin işləməsi üçün yaradılan normal mühit özözlüyündə təkmilləşir, dəyişir, bu və ya digər istiqamətdə bazarın səmərəli fəaliyyətini təmin edir. Deməli, aqrar bazarın tənzimlənməsində iqtisadi vasitələrlə yanaşı inzibati-hüquqi vasitələrdən və ya qeyri-iqtisadi vasitələrdən də istifadə edilməlidir.

İqtisadi vasitələrdən fərqli olaraq aqrar bazarın tənzimlənməsində istifadə olunan qeyri-iqtisadi vasitələr əsasən iqtisadi qərarlar qəbul olunmasının hüquqi əsaslarını yaratmaq məqsədilə müvafiq qanun və digər qanunvericilik sənədlərinin hazırlanması və qəbul edilməsi ilə bağlı məsələləri özündə birləşdirir.

Araşdırmalar göstərir ki, iqtisadiyyatın bütün sahələrinin, xüsusi ilə aqrar-sənaye sferasının inkişafı və istehsalın iqtisadi səmərəliliyi iqtisadi sistemin tərkib hissəsi olan maliyyə sisteminin fəaliyyətindən əhəmiyyətli dərəcədə asılıdır. Araşdırmalarımızın nəticəsi olaraq belə qənaətə gəlmək olar ki, aqrar bazarda maliyyə münasibətlərinin tənzimlənməsinin əsas istqamətlərinə aşağıdakıları şamil etmək olar:

- aqrar bazarın istehsal seqmentində müxtəlif mülkiyyət və təsərrüfatçılıq formalarının inkişafı üçün əlverişli hüquqi-iqtisadi şəraitin yaradılması;
- ölkənin büdcə siyasətində aqrar bazar seqsentlərinin vacib sahə kimi qiymətləndirilməsi, büdcədən investisiya ayrılmasında, subsidiyalar verilməsində və güzəştlərin müəyyənləşdirilməsində sahənin üstünlüyünün təmin edilməsi;
- aqrar sahəyə tətbiq edilən vergi siyasətinin istehsalın stimullaşdırılmasına yönəldilməsi;
- kredit siyasəti həyata keçirilərkən aqrar-sənaye istehsalının iqtisadiyyatın sahələri strukturunda vacibliyinin və əhalinin ərzaq məhsulları ilə təminatının əsasən daxili istehsal hesabına ödənilməsi zəruriliyinin nəzərə alınması;
- ölkədə maliyyə, kredit və pul bazarının aqrar-sənaye sferasının inki-

şafının stimullaşdırılmasına istiqamətləndirilməsi;

- ölkədə çevik qiymət siyasətinin həyata keçirilməsi, qiymətlərin müxtəlif növlərindən istifadə edilməsi və bir sıra strateji əhəmiyyətli məhsullara qiymətin dövlət tərəfindən tənzimlənməsi zəruriliyi;
- aqrar bazarın iqtisadi vasitələrlə qorunması və gömrük siyasətinin davamlı olaraq təkmilləşdirilməsi.

Maliyyə sistemində əsas yeri vergi sistemi tutur. Bu mənada "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 mart 1999-cu il tarixli fərmanı çox vaxtında verilmiş müsbət hal kimi qiymətləndirilməlidir. Həmin fərmanla kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən beş il müddətinə azad edilmiş və bu vergilərə görə borclar silinmişdir. Bu güzəştlər ölkə Prezidenti cənab İlham Əliyevin 2013 – cü ilin sonlarında imzaladığı Qanunla 2018 – ci ilin axirina kimi qüvvədə saxlanılmışlar.

Beləliklə, ölkədə mütərəqqi vergi sisteminin tətbiqini yeni maliyyə münasibətlərinin təkmilləşdirilməsinin başlıca istiqaməti kimi qiymətləndirmək olar. Hər şeydən əvvəl ona görə ki, yeni vergi sistemi istehsalın stimullaşdırılmasına yönəldilmişdir.

İnkişaf etmiş bazar ölklərinin təcrübəsi təsdiq edir ki, kredit bazarı azadlığı təmin olunmalı və kredit ehtiyatlarının alqı-satqısı tam sərbəstləşdirilməlidir. Heç şübhəsiz ki, kredit bazarının əsl mahiyyətini təhlil etdikdə məlum olur ki, o, hər şeydən əvvəl kredit alqı – satqısı üzrə münasibətləri nəzərdə tutur. Bu baxımdan ölkəmizin aqrar-sənaye sferası sistemində yeni kredit münasibətlərinin yaradılmasını ölkədə maliyyə münasibətlərinin formalaşdırılmasında başlıca amil hesab edirik.

**Dissertasiya işinin «Aqrar bazarın tənzimlənmə mexanizminin mövcud vəziyyətinin qiymətləndirilməsi» adlanan ikinci fəslin**də aqrar bazar münasibətlərinin inкişafının mövcud vəziyyəti təhlil edilmiş və aqrar bazarda əmtəə təкlifinin mövcud səviyyəsi və inkişaf təmayülləri, o cümlədən onun tənzimlənməsinin maliyyə-büdcə mexanizminin müasir durumu qiymətləndirilmişdir.

Kənd təsərrüfatında bazar təsərrüfatçılıq sisteminə keçilməsi ilk növbədə aqrar sektorda mülkiyyət münasibətlərinin yenidən qurulmasını, müxtəlif təsərrüfatçılıq formalarının yaradılmasını nəzərdə tutur. Inkişaf etmiş dünya dövlətlərinin təcrübəsi göstərir ki, aqrar islahatların həyata keçirilməsi qısa müddətli tədbir olmayıb, tarixi bir prosesdir. Aqrar islahatlar mahiyyət etibarilə əvvəlki təsərrüfatçılıq sisteminin yeni bazar münasibətləri sisteminə əvəzlənməsi və kənd təsərrüfatının idarə edilməsinin liberal iqtisadiy-



yatın tələblərinə uyğunlaşdırılması ilə şərtlənir. Aqrar islahatlar kənd təsərrüfatında köklü struktur dəyişikliklərinin həyata keçirilməsini, dövlət mülkiyyətinin özəlləşdirilməsini, yeni mülkiyyət münasibətlərinin və çoxukladlı təsərrüfatçılıq qurumlarının yaradılmasını, sahibkarlığın inkişafı üçün hüquqi, iqtisadi, təşkilati və texniki şəraitin yaradılmasını, istehsalçılar arasında azad rəqabət mühitinin yaradılmasını nəzərdə tutur.

Qeyd etmək lazımdır ki, ölkə iqtisadiyyatında aqrar bazarın formalaşması prosesi davam edir. Aqrar bazarın formalaşmasında aparılan aqrar islahatlar və dövlət mülkiyyətinin özəlləşdirilməsi prosesinin əhəmiyyətli rolu olmuşdur. Belə ki, ishatların aparılması nəticəsində dövlət inhisarından kənarlaşdırılan müəssisələr müstəqil təsərrüfat qurumlarına çevrilərək aqrar bazarın subyektinə çevrilmişdir. İnkişaf etmiş dünya dövlətlərinin təcrübəsi göstərir ki, aqrar bazarın əhatə dairəsi genişləndikcə, fəaliyyət göstərən istehsal qurumlarının sayı artdıqca bazarda əmtəə təklifinin səviyyəsi də artır. Eyni zamanda aqrar bazarda əmtəə təklifinin səviyyəsinin genişlənməsi azad rəqabət mühitinin yaranmasına əlverişli şərait yaradır ki, bu da nəticə etibarilə qiymətlərin səviyyəsinin stabilləşdirilməsinə və istehlakçıların məhsul əldə etmək imkanlarının artmasına gətirib çıxarır.

Apardığımız tədqiqatlar göstərir ki, çoxsaylı qüsurlara və çatışmazlıqlara malik olsa da, əvvəlki sistemin önəmli cəhəti ölkənin strateji maraqlarının qorunmasına və əhalinin tələbatının kəmiyyət baxımından da olsa ödənilməsinə xidmət etməsi idi. Təbiidir ki, keçmiş sosialist təsərrüfatçılıq sisteminin dağılması bütün sahələrdə olduğu kimi, onun aqrar bölməsinin də fəaliyyətini iflic vəziyyətə salmışdı. Bu bölmənin tələbat və ehtiyacları o zaman mərkəzləşdirilmiş iqtisadi əlaqələr və təhcizat vasitəsilə ödənildiyindən planlı sosialist iqtisadiyyatının dağıdılmasından sonra onun fəaliyyət göstərməsi mümkünsüz idi. Bundan əlavə, iqtisadi sistemin transformaşıyası xalq təsərrüfatınn bütün sahələrində yeni institutsional qurumların yaradılmasını tələb edirdi. Bu baxımdan aqrar sahədə bazar münasibətlərinin formalaşdırılması və çoxukladlı təsərrüfatçılıq sisteminin yaradılması kənd təsərrüfatında və bütövlükdə aqrar-sənaye sferasında də institutsional qurumların yaradılmasını obyektiv zərurətə çevirmişdi. Kənd təsərrüfatında və, bütövlükdə, aqrar-sənaye sferasında belə bir institutsional qurum beynəlxalq təcrübədə aqrar bazar hesab edilir.

Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin kooperasiyası və onların iqtisadi cəhətdən inteqrasiyası aqrar sahədə formalaşır. Qeyd etmək lazımdır ki, müstəqil Azərbaycan Respublikasının milli iqtisadiyyatının formalaşdırılmasında və inkişafında aqrar sahə mühüm rol oynayır. Əhalinin ərzaq, yeyinti və istehlak məhsullarına olan tələbatı aqrar sahə və

onunla qarşılıqlı əlaqəyə malik olan sahələr tərəfindən ödənilir. 2012-ci ilin məlumatlarına görə ümumi daxili məhsulun 5,2%-ə qədəri kənd təsərrüfatının payına düşür. Ölkə iqtisadiyyatında çalışan əmək qabiliyyətli əhalinin 37,7%-i kənd təsərrüfatı istehsalında çalışır.

Marketinq nöqteyi-nəzərindən aqrar bazarın inkişaf perspektivi həmin bazarın cəlbediciliyi və ona istehsalçıların əlyetərliyi ilə müəyyən olunur. Əgər bazarın cəlbediciliyi yüksəkdirsə və istehsalçıların ona əlyetərliyi təmin olunursa onda həmin bazarı inkişaf perspektivinə malik bazar hesab edirlər. Bazarın cəlbediciliyi yüksək olduqda, istehsalçıların isə ona əlyetərliliyi təmin olunmadıqda bazarın perspektiv inkişafından danışmaq çox çətindir. Hazırda Azərbaycanın aqrar bazarının kənd təsərrüfatı məhsulları seqmenti kifayət qədər cəlbedicidir. Bu da onunla əlaqədardır ki, sözügedən bazarın potensial tutumu kifayət qədər çoxdur və son illər kənd təsərrüfatı və ərzaq məhsullarına formalaşan qiymətlərin səviyyəsinin yüksəlişi bazarın bu seqmentinə çıxmaq iqtidarında olan istehsalçılara kifayət qədər yüksək gəlir əldə etməyə imkan verir.

Aparılan islahatlar aşağıdakı zəruri transformasiya yönümlü dəyişikliklərin başa çatması ilə nəticələnmişdir:

- aqrar sahənin bazar iqtisadi münasibətlərinə uyğun qanunvericilik bazası yaradılmışdır. İstehsalın stimullaşdırılması və daxili bazarın qorunması istiqa-mətində bir sıra vacib tədbirlər görülmüşdür və bu proses ardıcıl olaraq davam etdirilir;

- aqrar bölmədə bazar münasibətlərinin təşəkkülü, mülkiyyətçilərin yaradılması, sahibkarlar ordusunun və kənddə çoxukladlı iqtisadiyyatın formalaşdırılması prosesi müvəffəqiyyətlə davam etdirilir;

-aparılan islahatlar nəticəsində ölkənin kənd təsərrüfatı məhsullarının 99 faizi özəl bölmədə istehsal olunur;

-əvvəlki illərdən fərqli olaraq, bazarın tələbi əsasında istehsalın yeni struk-turu, kənd təsərrüfatının yeni sahə quruluşu formalaşdırılır;

-iqtisadi tənəzzülün qarşısı alınmış, 1996-ci ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalında yüksək artım tempi təmin edilmişdir;

-sahibkarlar yeni vərdiş və biliklər əldə etmiş, istehsal texnologiyasını təkmilləşdirmək sahəsində xeyli təcrübə toplamış, onların yeniliklərə və elmi innovasiyalara meylləri artmışdır.

Hazırda ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalçıları müxtəlif təyinatlı texniki resurslarla təmin olunma səviyyəsinin yüksəldilməsi üçün lizinq əməliyyatlarından istifadə olunur. Bu sahədə işlərin görülməsi üçün zəruri hüquqi baza yaradılmış və real əməliyyatlar üçün maliyyə mənbələri dəqiqləşdirilmişdir.



Kənd təsərrüfatının inkişaf səviyyəsi yeni istehsal münasibətlərinin tələblərinə uyğun olaraq ölkə əhalisinin ərzaq və yeyinti məhsullarına olan tələbatının ödənilməsi mənbəyini, eləcə də aqrar bazarın maddi əsasını, onun strukturunu təşkil edir. Aqrar bazarın formalaşdırılmasının xarakterik xüsusiyyətlərini əsas götürərək belə qənaətə gəlmək olar ki, aqrar bazarın tutumu və onun doydurulması kənd təsərrüfatı məhsulları istehsalının həcmindən və onun artım tempindən bilavasitə asılıdır. Aqrar bazarın seqmentlərində kənd təsərrüfatı məhsulları istehsalının natural ifadədə də həcmi və dinamikası aşağıdakı cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1-dən göründüyü kimi, 2011-ci illə müqayisədə 2012-ci ildə pambıq məhsulları istehsalı 85,8%, tütün məhsulları istehsalı 19,4%, tərəvəz məhsulları istehsalı 0,1%, kartof istehsalı 3,2%, üzüm istehsalı 10,2%, meyvəgiləmeyvə istehsalı 5,8%, yumurta istehsalı 21,3% artmışdır. Müqayisə olunan dövrdə bostan məhsullarının istehsalı 10,5% azalmışdır.

Cədvəl 1

Azərbaycan Respublikasında bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsərrüfatı məhsulları istehsalının dinamikası

| Göstəricilər | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2011-ci illə müqayisədə 2012-ci ildə % |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi məhsul, min ton | | | | | | | | |
| Taxıl: | | | | | | | | |
| ilkin çəkidə | 2078,9 | 2004,4 | 2498,3 | 2988,3 | 2000,5 | 2458,4 | 2802,2 | 114,0 |
| Pambıq | 130,1 | 100,1 | 55,4 | 31,9 | 38,2 | 66,4 | 57,0 | 85,8 |
| Tütün | 4,8 | 2,9 | 2,5 | 2,6 | 3,2 | 3,6 | 4,3 | 119,4 |
| Kartof | 999,3 | 1037,3 | 1077,1 | 983,0 | 953,7 | 938,5 | 968,5 | 103,2 |
| Tərəvəz | 1186,4 | 1227,3 | 1228,3 | 1178,6 | 1 189,5 | 1214,8 | 1216,2 | 100,1 |
| Bostan məhsulları | 362,1 | 417,6 | 407,7 | 410,8 | 433,6 | 478,0 | 428,0 | 89,5 |
| Üzüm | 94,1 | 103,4 | 115,8 | 129,2 | 129,5 | 137,0 | 151,0 | 110,2 |
| Meyvə və giləmeyvə | 662,4 | 677,8 | 712,8 | 718,2 | 729,5 | 765,8 | 810,0 | 105,8 |
| Yaşıl çay yarpağı | 0,65 | 0,48 | 0,32 | 0,45 | 0,54 | 0,53 | 0,57 | 107,5 |
| Mal-qara və quş əti (kəsilmiş çəkidə) | 212,7 | 225,5 | 232,3 | 237,1 | 253,8 | 263,7 | 285,6 | 108,3 |
| Süd | 1299,5 | 1341,3 | 1381,6 | 1433,1 | 1536,2 | 1622,3 | 1719,6 | 106,0 |
| Yumurta, milyon ədəd | 760,9 | 953,6 | 1101,2 | 1209,4 | 1178,6 | 1011,0 | 1226,7 | 121,3 |
| Yun (fiziki çəkidə) | 13,6 | 14,2 | 14,8 | 15,3 | 15,6 | 16,2 | 16,5 | 101,9 |

Qeyd etmək lazımdır ki, müqayisə olunan dövrdə pambıq və tütün istehsalının aşağı düşməsi bilavasitə əkin sahəsinin azalması hesabına baş vermişdir. Bununsa başlıca səbəbi onunla bağlıdır ki, emal müəssisələri pambıq, tütün və çay yarpağını ucuz qiymətə tədarük etdiyindən kənd təsərrüfatı xammalı istehsalçıları adı çəkilən məhsulları istehsal etməyə maraqlı olmurlar. Mal-qaranın baş sayının artımı heyvan-darlıq məhsulları istehsalının artımını şərtləndirmiş, 2012-ci ildə 285,6 min ton ət, 1719,6 min ton süd, 1226,7 mln. ədəd yumurta, 16,5 min ton yun istehsal olunmuşdur. 2011-ci illə müqayisədə ət istehsalı 8,3%, süd 6,0%, yun 1,9% artmışdır. Bütün təsərrüfat kateqoriyaları üzrə heyvandarlıqda məhsuldarlıq səviyyəsinin təhlili göstərir ki, istehsal artımı əsas etibarı ilə mal-qara və quşların baş sayının artması hesabına əldə edilmişdir. Cədvəl 1-nin təhlilindən də acıq-aşkar görünür ki, yalnız bostan məhsullarından başqa bütün digər təsərrüfat kateqoriyaları üzrə keçmiş illərlə müqayisədə xeyli artım müşahidə edilir.

Qeyd etmək lazımdır ki, aqrar bazar seqmentlərində maliyyə münasibətlərinin səmərəli formalaşması kənd təsərrüfatı məhsullarının iqtisadi səmərəliliyinin yekun göstəricisindən, başqa sözlə, kənd təsərrüfatı məhsulları satışının rentabellik səviyyəsindən birbaşa asılıdır. Aqrar bazar seqmentlərində məhsul satışının zərərlə yekunlaşması bu qurumun səmərəli fəaliyyət göstərmək imknalarını məhdudlaşdırır.

Kənd təsərrüfatı müəssisələrinin satdıqları məhsulların rentabellik səviyyəsi aşağıdakı cədvəl 2-də göstərilmişdir.

Araşdırmalar göstərir ki, hal-hazıradək milli iqtisadiyyatda, o cümlədən aqrar sektorda qiymətlərin subsidiya vasitəsi ilə tənzimlənməsi nəzərdə tutulmayıb. Belə ki, yüksək kondissiyalı toxum istehsal etmək üçün dövlət toxumçuluq müəssisələrinə subsidiya verə bilər. Halbu ki, inkişaf etmiş xarici ölkələrdə fermerlərin xərclərində dövlət subsidiyasının xüsusi çəkisi 50-70% təşkil edir. Yaxşı olardı ki, respublikamızda da ən zəruri ərzaq və xammal məhsullarının istehsalına çəkilən xərclərin 20-30 faizi "Neft fondu"nda yığılan vəsait hesabına ödənilsin. Bu tədbir kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsinin stabilləşməsinə və istehsalçıların gəlirlərinin artmasına zəmin yaradar.

Apardığımız araşdırmalardan belə nəticəyə gəlmək olar ki, səmərəli aqrar-ərzaq bazarın formalaşdırılması, aqrar bazarda maliyyə-büdcə münasibətlərinin stabilləşdirilməsi dövlət tərəfindən çevik aqrar siyasətin həyata keçirilməsindən əhəmiyyətli dərəcədə asılıdır. Ona görə də aqrar siyasətin başlıca hədəfi kənddə çoxukladlı iqtisadiyyat formalaşdırmaqdan, daxili bazarın səmərəli şəkildə qorunmasına nail olmaqdan, əhalinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatını yerli istehsal hesabına təmin etməkdən



ibarət olmalıdır.

Cədvəl 2

Azərbaycan Respublikasında kənd təsərrüfatı müəssisələrinin satdıqları məhsulların rentabellik səviyyəsi, %

| Göstəricilərin adı | 1995 | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dənli və dənli paxlalılar | 44,0 | 7,9 | 35,5 | 32,0 | 36,3 | 19,0 | 39,8 | 42,9 | 47,6 |
| Xam pambıq | -6,6 | -30,7 | 26,3 | 6,2 | 0,45 | 4,2 | 7,5 | -12,0 | 12,8 |
| Şəkər çuğunduru (emal üçün) | -17,7 | -11,3 | 6,3 | -4,1 | 6,3 | 8,6 | 51,8 | 139,6 | 154,2 |
| Tütün | -17,7 | -2,9 | 37,3 | 48,9 | 25,3 | 62,9 | 50,0 | 41,6 | 22,8 |
| Yaşıl çay yarpağı | 5,8 | 8,0 | 5,5 | 2,1 | -1,8 | 3,8 | 3,4 | 9,5 | 8,7 |
| Kartof | -31,6 | -31,4 | 25,4 | 75,0 | 67,8 | 75,7 | 52,5 | 15,6 | 22,5 |
| Tərəvəz (açıq torpaqda) | -39,3 | -9,1 | 20,3 | 54,1 | 36,0 | 0,6 | 40,9 | 6,6 | 41,3 |
| Bostan məhsulları | -11,0 | 14,3 | 19,6 | 30,4 | 32,3 | 40,8 | 43,4 | 48,3 | 44,0 |
| Meyvə və giləmeyvə | -29,4 | 4,0 | 20,0 | 42,9 | 47,6 | 49,3 | 11,3 | 14,3 | 29,5 |
| Üzüm | -13,3 | -12,6 | 1,8 dəfə | 55,0 | 30,7 | 33,4 | 22,4 | -3,8 | 6,9 |
| İri buynuzlu | -49,8 | -33,9 | 1,5 | 16,5 | 20,7 | 25,3 | 5,9 | 10,0 | 46,1 |
| Qoyun və keçi | -8,9 | -14,0 | 33,5 | 34,0 | 38,0 | 25,8 | 26,0 | 37,4 | 43,9 |
| Donuz | 4,1 | -64,6 | -4,9 | -15,6 | 4,7 | -4,1 | -45,7 | -43,5 | -55,5 |
| Quş | -1,5 | -13,7 | 1,9 | 16,9 | 13,7 | 27,1 | 10,8 | 26,9 | 19,4 |
| Süd və süd məhsulları | -36,5 | -12,4 | 17,6 | 15,4 | 20,3 | 25,4 | 20,8 | 14,2 | 25,7 |
| Yun | 6,2 | -28,4 | 26,4 | 41,0 | 51,2 | 51,3 | 40,6 | 24,0 | 24,3 |
| Yumurta | -1,4 | -24,3 | 15,6 | 1,9 | 7,1 | 10,4 | 1,5 | 1,4 | 4,3 |

**Dissertasiya işinin üçüncü fəsli «Aqrar bazarın tənzimlənməsinin maliyyə-büdcə mexanizmlərinin islahatının əsas istiqamətləri» adlanır.** Bu fəsildə aqrar bazarın maliyyə mexanizminin təkmilləşdirilməsi yolları və aqrar bazarın büdcə-vergi mexanizminin təkmilləşdirilməsi istiqamətləri, o cümlədən idxal-ixrac əməliyyatlarının oптimallaşdırılması və aqrar bazarın tənzimlənməsində onun rolunun artırılması müəyyənləşdirilmişdir.

İqtisadiyyatın bütün sahələrində yeni istehsal münasibətlərinin formalaşdırılması bazar təsərrüfatçılıq sisteminin funksional strukturlarının təşəkkülü və inkişafı ilə xarakterizə olunur. Məlum olduğu kimi, bazar və onun funksional modifikasiyaları onun subyektləri və bu subyektlərə xidmət edən və onunla qarşılıqlı əlaqədə olan strukturların qarşılıqlı əlaqəsi fonunda təşkilati və iqtisadi baxımdan formalaşır. Bazarın formalaşması və təşəkkülü tarixi xarakter daşısa da bu proses o zaman özünün yüksək mərhələsinə çatır ki, qarşılıqlı münasibətlərdə dəyər amilləri ön plana çıxır. Bazarda dəyər amillərinin əsas faktora çevrilməsi bazar subyektləri arasında qarşılıqlı əlaqələrin intensivləşməsinə, bazarın tutumunun və əmtəə dövriyyəsinin genişlənməsinə əlverişli şərait yaradır.

Aqrar bazarda maliyyə münasibətləri aşağıdakı sferaları əhatə edir:

- aqrar bazarın subyektləri arasındakı maliyyə münasibətləri;
- aqrar bazarın subyektlərilə ona xidmət edən qurumlar arasındakı maliyyə münasibətləri;
- aqrar bazarla dövlət arasındakı maliyyə münasibətləri.

Məlum olduğu kimi, yeni iqtisadi münasibətlərə keçid bütün sahələrdə olduğu kimi aqrar bazarda, o cümlədən bu funksional bazar modifikasiyasının bütün seqmentlərində sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsilə şərtlənir. Aqrar-sənaye sferasında bazar münasibətlərinin formalaşdırılması, kənd təsərrüfatı, emal və digər xidmət strukturlarının qarşılıqlı münasibətləri fonunda yaranan aqrar bazarın yaradılması müxtəlif mülkiyyət münasibətlərinə əsaslanan çoxukladlı iqtisadiyyatın qurulması, azad rəqabətə, xüsusi sahibkarlığın yaranmasına, dövlət inhisarında olan istehsal sahələrinin xüsusi çəkisinin azaldılmasına və iqtisadi tənzimlənmə üsullarına üstünlük verilməsilə şərtlənir.

Aqrar bazarda maliyyə münasiəbtlərinin təkmilləşdirilməsində əsas meyar aşağıdakılardan ibarətdir:

- dövlətin iqtisadi maraqlarının qorunması;
- aqrar bazar subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin gəlirlə yekunlaşması;
- aqrar sektorda fəaliyyət göstərən və mülkiyyət mənsubiyyətindən asılı olmayaraq bütün əmtəə istehsalçılarına dövlətin zəruri maliyyə dəstəyinin həyata keçirməsi;
- emal müəssisələrinin aqrar sektor üzərində iqtisadi və maliyyə inhisarçılıcının tədricən yumşaldılması və aradan qaldırılması.

Aparılan araşdırmalar göstərir ki, aqrar bazarda maliyyə münasibətlərinin sağlamlaşdırılması dövlətin bu sahəyə maliyyə resursları yönəlməsindən əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı əsas götürülərək hökumət tərəfindən aqrar bölməyə neft satışı və suvarma suyunun subsidiyalaşdırılması həyata keçirilmişdir.

Hal-hazırda fermerlərə kreditlər 4 müxtəlif kanal vasitəsilə çatdırılır: a) hökumətlə Dünya Bankı və TACIS kimi beynəlxalq maliyyə təşkilatlarının birgə həyata keçirdikləri kənd təsərrüfatı kredit layihələri, həmçinin, Yaponiya və Almaniyanın (GTZ) hökumət qrantları; b) beynəlxalq QHT-lər tərəfindən həyata keçirilən kredit layihələri; c) istehsal vasitələri və mexanizm təchizatlarının kreditləri; d) şirkətlərinin verdikləri kreditlər.

Hal-hazırda Dünya Bankının 2 kənd təsərrüfatı layihəsi həyata keçirilməkdədir. Bu məqsəd üçün ayrılmış maliyyə vəsaitinin miqdarı 24,9 milyon ABŞ dollarıdır. Təsərrüfatların özəlləşdirilməsi layihəsi üzrə kredit komponenti başa çatdırılmaq üzrədir, kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi layihəsi üzrə kredit komponenti isə 2002-ci ilin sonunda fəaliyyətə başlamışdır. Təsərrüfatların özəlləşdirilməsi layihəsi çərçivəsində 2002-ci ilin aprelinə qədər 4037 fermerə 32,6 milyon ABŞ dolları həcmində kreditlər verilmişdir.



İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, aqrar bazarın makroiqtisadi tənzimlənmə siyasətində dövlətin vergi strategiyası prioritet rola malikdir. Vergilər dövlət büdcəsinin gəlir hissisənin formalaşdırılmasının ən mühüm mənbəyini təşkil etməklə yanaşı həm də müəssisələrin, firmaların və vətəndaşların ilkin gəlirlərinin yenidən bölüşdürülməsində aparıcı rol oynayır. Aqrar bazarda dövlətin iqtisadi və ərzaq müstəqilliyinin qorunması məqsədilə vergi sisteminin ardıcıl olaraq təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, vergi mexanizminin iqtisadi konyunkturun dəyişməsindən asılı olaraq daim təkmilləşdirilməsi yolu ilə dövlət üçün prioritet xarakter daşıyan sosial iqtisadi məqsədlərə nail olmaq mümkündür.

Aqrar bazarda vergilərin tənzimlənmə funksiyası mahiyyətcə üç müxtəlif faktoru - stimullaşdırma, məhdudlaşdırma və nəzarətedici xüsusiyyətləri özündə əks etdirir. Qeyd etmək lazımdır ki, stimullaşdırma funksiyası daha çox postsosializm ölkələrində bazar yönümlü iqtisadiyyatın təşəkkülü problemlərini tədqiq edən müasir iqtisadçılar tərəfindən müzakirə edilir. Aqrar bazarda vergilərin stimullaşdırma funksiyası mahiyyət etibarilə ölkənin ərzaq təhlükəsizliyinin təmin olunmasına, kənd təsərrüfatı məhsullarının idxal və ixrac balansında idxalın ekspansiyasının neytrallaşdırılmasına xidmət edir.

Dövlətin makroiqtisadi tənzimlənmə siyasətində ədalətli vergi qoymanın başlıca prinsipi ondan ibarətdir ki, gəlirin həcmi nə qədər böyükdürsə, ona tətbiq edilən vergi də bir o qədər böyük olmalıdır. Hələ erkən kapitalizmin formalaşdığı dövrdən başlayaraq vergi məbləğinin gəlirə mütanasib olması haqqında fikirlər formalaşmışdır. İqtisadiyyatda vergi sisteminin təkmilləşdirilməsinin başlıca istiqaməti vergi yükünün azaldılmasıdır. Son illər iqtisadiyyatda vergi yükünün azaldılması ilə əlaqədar ardıcıl tədbirlər həyata keçirilmiş, xüsusilə aqrar sahədə torpaq vergisi istisna olmaqla digər vergi növləri ləğv edilmişdir. Bu addım eyni zamanda iqtisadiyyatın süni qeyri – bazar vergilərindən təmizlənməsinə də xidmət edir. Vergi sisteminin təkmilləşdirilməsinə yönəldilmiş fəaliyyətin mühüm tərkib elementlərindən biri də yerli (regional) vergilərin sayının azaldılmasıdır. Hazırda Azərbaycanda mənfəətdən tutulan vergi azaldılaraq 20%-ə endirilmişdir və bu istiqamətdə işlər davam etdirilir.

Bazar münasibətləri şəraitində ilkin və təkrar emalda ən mühüm iqtisadi

səmərəlilik göstəriciləri kimi fondverimi və ümumi rentabellik çıxış edir. Sənayenin fondverimi əsas fondların hər manatına düşən əmtəəlik məhsulu, ümumi rentabellik isə balans mənfəətinin əsas və dövriyyə fondlarının orta illik dəyərinə nisbəti kimi müəyyən edilir. Bu göstəricilər istehsala və avans edilmiş kapitalın necə istifadə edilməsini, müəssisənin aktivlərinin likvidlik səviyyəsini, səhm və borc öhdəlikləri üzrə ödəniş qabiliyyətini əks etdirir. Ona görə də zavodları ilk növbədə öz fondlarından səmərəli istifadə etməyə stimullaşdırmaqla vergi dərəcələri fondverimi və ümumi rentabelliyin artması ilə azalan şəkildə tətbiq edilməsi məqsədəuyğun hesab oluna bilər. Bu zaman mənfəətdən verginin dərəcəsi balans rentabelliyinin dəyişməsinə, ƏDV isə fondveriminin dəyişməsinə tərs mütənasib şəkildə tətbiq edilə bilər.

Beləliklə, emal sənayesi müəssisələrinin ƏDV və mənfəətdən vergiyə cəlb edilməsi cədvəl 3-də göstərildiyi kimi təklif olunur. Bu halda vergitutma obyekti dəyişir, vergilər yenə də yaranmış əlavə dəyərə və mənfəətə görə tətbiq olunur, lakin fondlardan istifadə səviyyəsinə görə differensiallaşdırılır.

Cədvəl 3

Emal sənaye müəssisələri üçün təklif olunan ƏDV və mənfəətdən verginin hesablanma qaydası

| Vergilər | Sənayenin fondverimi (manatla) | Ümumi rentabellik | Vergi dərəcəsi (%-lə) |
|---|---|---|---|
| Əlavə dəyər vergisi | 1.0 manatadək | x | 18,0 |
| | 1-2.0 arasında | x | 12,0 |
| | 2-4.0 arasında | x | 6,0 |
| | 4.0-dan yuxarı | x | 18,0 |
| Mənfəətdən vergi | x | 10,0%-dək | 20,0 |
| | x | 10,0%-50,0% | 15,0 |
| | x | 50,0%-100,0% | 10,0 |
| | x | 100,0%-dən yuxarı | 30,0 |

Cədvəldən göründüyü kimi, sənayenin fondverimi 4,0 manat səviyyəsini, ümumi rentabellik isə 100,0% səviyyəsini keçdikdə ƏDV və mənfəətdən vergi yenidən maksimum dərəcədə hesablanır. Fondverimi və ümumi rentabelliyin bu səviyyəsi artıq sahədə güclü inkişafın yarandığını göstərir və vergi yükü həmin istiqamətə yönəldilməlidir. Vergi mexanizminin çevikliyi də elə bunda özünü büruzə verir.

Makroiqtisadi tənzimlənmə siyasətində vergi strategiyasının rolu əsas etibarilə xarici rəqabətin əlverişsiz təsirlərinə çevik reaksiya göstərə bilmə-



yən və eyni zamanda az gəlirli sahələrin, o cümlədən aqrar sahənin vergidən azad olunması ilə şərtlənir. Son illər dövlət tərəfindən həyata keçirilən mühafizəkarlıq tədbirləri aqrar islahatların sürətləndirilməsinə və yerli əmtəə istehsalçılarının iqtisadi cəhətdən stimullaşdırılmasına yönəldilmişdir.

Keçid iqtisadiyyatlı ölkələrdə vergi sisteminin yenidən qurulmasının prioritet istiqamətini iqtisadi artımın təmin edilməsi və eyni zamanda vergiverənlərin fərdi sərvətlərinin və büdcəyə vergi daxil olmalarının maksimallaşdırılması təşkil edir. Iqtisadiyyatda investisiya fəallığına özəlləşdirilmiş müəssisələrin səhmlərinə olan tələbdə əhəmiyyətli dərəcədə təsir göstərir.

Azərbaycanda sabit investisiya mühitinin təmin edilməsinin mühüm istiqamətini ilk növbədə xarici investorlar üçün əlverişli şəraitin yaradılması təşkil edir. Son vaxtlara qədər milli iqtisadiyyata xarici kapitalın birbaşa investisiyalar şəklində cəlb edilməsinin əsas forması birgə müəssisələrin yaradılması hesab edilirdi. Lakin sonralar iqtisadiyyata iri həcmli xarici kapitalın yatırılması son nəticədə bu tip müəssisələrin sayının çox olmasına baxmayaraq, onların ümumi kapitalında xarici investisiyaların həcminin və onların iqtisadiyyatdakı rolunun nisbətən zəifləməsinə gətirib çıxardı.

Aparılan araşdırmalar göstərir ki, xarici ticarət əlaqələri iqtisadiyyatın bütün sahələrinə, o cümlədən aqrar sahədə və onun bazasında formalaşan aqrar bazarın inkişafına bilavasitə təsir göstərir. Ölkənin xarici ticarət fəaliyyətinin, o cümlədən idxalın və ixracın strukturunu təhlil etdikdə belə qənaətə gəlmək olar ki, son illər aparılan uğurlu islahatlar bütövlükdə makroiqtisadi göstəricilərin səviyyəsinə, o cümlədən xarici ticarət dövriyyəsinin həcminə, idxal və ixracın ümumi həcminə nəzərəçarpacaq dərəcədə təsir göstərsə də lakin bu sahədə müəyyən problemlər hələ də qalmaqdadır. Ölkə üzrə ümumi ixracın tərkibində xammalın, idxalın tərkibində isə nisbətən yüksək dünya bazar qiymətlərinə reallaşdırılan hazır məhsulun üstünlük təşkil etməsi, eləcə də ölkənin ərzaq və istehlak məhsullarına olan tələbatının ödənilməsində idxal kanallarının xüsusi çəkisinin hələ də yüksək olması aqrar bazarın ümumi vəziyyətini mürəkkəbləşdirir. Belə ki, 2010-cu ildə ixracın strukturunda neft və neft emalı məhsullarının 88,9%, idxalın strukturunda isə hazır sənaye mallarının 37%-dək, ərzaq və yeyinti məhsullarının isə 14%-dək xüsusi çəkiyə malik olması bu sahədə vəziyyətin mürəkkəb xarakter daşıdığına əyani sübutdur.

Məlumdur ki, kənd təsərrüfatı məhsullarının idxalı və ixracı öz növbəsində ölkədə bu məhsullara olan tələbatın ödənilməsində yaranan problemlərə də ciddi şəkildə təsir göstərir, daha dəqiq desək yerli istehsalçıların təklif etdikləri məhsulun həcmi tələbata uyğun gəlmədiyi hallarda həmin boşluq əsasən idxal məhsulları hesabına aradan qaldırılır. Deməli, idxal-ixrac

əməliyyatları tələb və təklif arasındakı nisbətin ölkənin iqtisadi mənafeyi baxımından tənzimlənməsində, yaxud tələb və təklifin tarazlığının təmin olunmasında bilavasitə yardımçı olur.

Ölkənin ərzaq bazarında yerli istehsalçıların maraqlarını qorumaq məqsədilə kənd təsərrüfatı məhsullarının qiymətlərinin yüksəldilməsinin mümkün yollarından biri də idxalın məhdudlaşdırılmasıdır. Daxili istehsal istehlakı üstələyirsə, idxal üzərində nəzarət metodu ilə bazar qiymətlərinin himayə edilməsi siyasəti heç də həmişə gözlənilən nəticəni vermir.

Ölkəyə ərzaq idxalının tənzimlənməsi üçün ilkin şərt kimi tənzimlənmə tədbirlərinin yumşaq və məhdud xarakter daşıması götürülməlidir. Ona görə ki, iqtisadi islahatlar dövründə idxalın liberallaşdırılması ilə əlaqədar ərzaq bazarında həyata keçirilən köklü tənzimləmə tədbirləri bir tərəfdən, bu məqsəd üçün çox böyük məbləğdə büdcə vəsaitinin ayrılması ilə bağlıdırsa, digər tərəfdən ərzaq məhsullarının qiymətlərinin yüksəlməsi ilə səciyyələnir. İkinci şərt əhalinin tələbatının ödənilməsində beynəlxalq əmək bölgüsünün üstünlüklərindən istifadə edilməsi ilə ölkənin daxili bazarının və ölkə istehsalçılarının mənafelərinin qorunmasının düzgün əlaqələndirilməsi hesab edilir.

Azərbaycan 1997-ci ilin iyununda ÜTT-yə üzv olmaq üçün müraciət etmiş və müşahidəçi statusunda bu təşkilata qəbul olunmuşdur. Elə həmin il ÜTT-də Azərbaycan üzrə işçi qrup yaradılmışdır. Qrupun tərkibində ABŞ, Avropa Ittifaqını təmsil edən Almaniya, Yaponiya, Kanada, Türkiyə, Indoneziya və Tailand kimi ölkələrin nümayəndələri daxildir. Artıq ÜTT-yə Azərbaycanın xarici ticarət rejimi haqqında memorandum təqdim olunub və bununla da Azərbaycanın ÜTT-yə üzvlüyünün müzakirəsinin birinci mərhələsi başlanıb.

Ölkəmizin ÜTT-yə daxil olması onun dünya təsərrüfat əlaqələrinə inteqrasiya olunmasının bir mərhələsidir. ÜTT-yə daxil olmaqla Azərbaycan öz iqtisadiyyatının müqayisəli üstünlüklərini reallaşdıra bilmək imkanı qazanacaq, ticarət şəraitini yaxşılaşdıracaq, ixracın həcmini artıracaq və onu daha da rəngarəng edəcək, satış bazarlarını stabilləşdirəcək, onun coğrafiyasını genişləndirəcək və istehsal olunan məhsulların keyfiyyətinin artırılmasının stimullaşdırılması üçün əlverişli şərait əldə edəcəkdir.

Azərbaycanın ÜTT-yə üzvlüyünün əhəmiyyəti böyükdür. Belə ki, ölkəmiz ÜTT-yə üzv olmaqla nəinki dünya ticarətində daha geniş şəkildə iştirak etmək imkanı qazanacaq, həmçinin milli maraqlarımızı nəzərə almaqla onun inkişafında iştirak edəcəkdir.

Azərbaycana daha əlverişli şərait rejimi aid ediləcək. Bu rejimə görə, Azərbaycanla ticarət əlaqələri olan ÜTT-nin üzv ölkələri Azərbaycandan



idxal olunan əmtəələrə münasiəbtdə gömrük rüsumlarını hər hansı bir üçüncü ölkəyə münasibətdə tətbiq elədiyi gömrük rüsumlarından yuxarı səviyyədə tətbiq edilə bilməz. Bu isə ticarət əlaqələrimizin inkişafında yeni bir mərhələnin başlanması demək olardı.

Məhz bütün yuxarıda qeyd olunanlara nail olmaqla respublikamızın möhkəmlənməkdə olan milli iqtisadiyyatını, o cümlədən kənd təsərrüfatını və onun bazasında formalaşan aqrar bazarını və bütövlükdə daxili bazarı xarici təsirlərdən qorumaq, daxili istehsalın rolunu gücləndirmək mümkündür.

Tədqiqat işinin sonunda əldə edilən nəticələr, elmi-təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr verilmişdir.

**Dissertasiya işinin əsas müddəaları aşağıda dərc olunmuş monoqrafiya, elmi məqalə və tezislərdə öz əksini tapmışdır:**

1. Aqrar bazar və onun tənzimlənməsi məsələləri. Monoqrafiya. Azərbaycan Elmi–Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutu. Bakı, 2007, 77 s.
2. Kənd təsərrüfatı müəssisələrində maliyyə fəaliyyətinin müasir vəziyyəti və təkmilləşdirilməsi yolları. Azərbaycan Elmi–Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri. Bakı, 2008, № 4, s.328–334.
3. Kənd təsərrüfatı müəssisələrinin maliyyələşdirilməsində investisiyaların rolu. Azərbaycan Elmi–Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun Elmi Əsərləri. Bakı, 2011, № 4, s. 320–324.
4. Aqrar bazarın iqtisadi vasitələrlə tənzimlənməsi məsələləri. ”Kooperasiya” elmi–nəzəri jurnal. Bakı,2012,№1(24), s. 55-58.
5. Müasir şəraitdə aqrar bazarın tənzimlənməsinin zəruriliyi və onun şərtləndirən amillər. Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutunun Elmi Əsərləri. Bakı, 2012, № 1, s. 309-312.
6. Aqrar bazarın maliyyə mexanizminin təkmilləşdirilməsi. Azərbaycan Dövlət Aqrar Universiteti. Akademik Əhməd Mahmudovun anadan olmasının 89 – cu il dönümünə həsr olunmuş “Aqrar iqtisadiyyat və innovasiyalı inkişaf” mövzusunda ümumrespublika elmi – praktik konfransın materialları. Gəncə, 25 may 2012, s.80–81.
7. Aqrar bazarın büdcə - vergi mexanizminin təkmilləşdirilməsi. “Milli iqtisadiyyatın inkişafı və səmərəliliyinin yüksəldilməsi” mövzusunda beynəlxalq elmi–praktiki konfransın materialları. Bakı, 27–28 iyun 2012,s.792 – 795.
8. Aqrar bazarın tənzimlənməsini şərtləndirən amillər. Akademik Əhməd Mahmudovun anadan olmasının 90 illiyinə həsr olunmuş “Müasir

inteqrasiya şəraitində Azərbaycan iqtisadiyyatının səmərəliliyinin yüksəldilməsi yolları" mövzusunda elmi konfrans. Odlar yurdu. Elmi əsərlər. Bakı, 2013.

9. Совершенствование механизма регулирования аграрного рынка в современных условиях. Международный научный журнал, №3, Москва, 2013, стр.50-55

10.Müasir şəraitdə aqrar bazarın tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi. Azərbaycan Aqrar Elmi, Bakı, 2013, 1, s. 171-175

11.Государственное регулирование аграрного рынка Азербайджанской Республики.V Международная научно-практическая интернет-конференция «Трансформация экономических систем: особенности институционального развития современного рыночного хозяйства». Полтава, 2013

12.Aqrar bazarın tənzimlənməsində idxal-ixrac əməliyyatlarının rolu. "Kooperasiya" elmi–nəzəri jurnal. Bakı, 2013, №4 , s. 166 – 171.



**НАРГИЗ ШАМИЛЬ кызы ХАЛЫГОВА**

## Совершенствование механизма регулирования аграрного рынка в современных условиях

### Р Е З Ю М Е

Диссертационная работа состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность избранной темы, характеризуется степень ее изученности, указываются основные задачи, объект и предмет исследования, научная новизна и практическая значимость работы, а также представлены апробация результатов исследований и их внедрение.

Первая глава диссертационной работы называется «Научно-теоретические основы регулирующего механизма аграрного рынка». В этой главе были показаны социально-экономическая сущность и факторы, обуславливающие регулирование аграрного рынка, а также выявлены особенности реализации регулирующего механизма и роли финансово-бюджетных механизмов.

Вторая глава диссертационной работы называется «Оценка существующего регулирующего механизма аграрного рынка». В этой главе анализируется существующее положение развития аграрных отношений и существующий уровень товарных предложений в аграрном рынке и тенденции развития, а также было оценено современное состояние регулирования финансово-бюджетного механизма.

Третья глава диссертационной работы называется «Основные направления преобразований финансово-бюджетных механизмов регулирования аграрного рынка». В этой главе были определены пути усовершенствования финансового и финансово-налоговых механизмов аграрного рынка, а также оптимизации операций ввоза и вывоза и увеличение его роли в регулировании аграрного рынка.

В заключительной части даются выводы и рекомендации автора, сформулированные по результатам исследований.

**NARGIZ SHAMIL KHALIGOVA**

**Improvement of the regulation mechanism of agrarian market in modern situation**

## SUMMARY

Dissertational work consists of the introduction, three chapters, the conclusion of the list of the used literature and appendices.

In introduction the urgency of the elected theme is proved, tasks are formulated the purpose, the subject and object of research, theoretical, information and methodological base, novelty of the executed work, and also are given data on approbation.

**The first chapter of the dissertation is called "Scientific-theoretical bases of the regulation mechanism of agrarian market".**The socio-economic essence of agrarian market and the factors defining the need for its regulation, including the realization characteristics of its regulation mechanism and the role of financial-budget mechanisms are shown in this chapter.

**The second chapter of the dissertation is called "The evaluation of the current situation of the regulation mechanism of agrarian market".** The modern situation of agrarian market relations are analyzed in this chapter. Also, the development directions of goods supply and the modern situation of the regulation of its financial-budget mechanism have been evaluated.

**The third chapter of the dissertation is called "The main directions of the reform of financial-budget mechanism of the regulation of agrarian market".**The ways of improvement of the finance mechanism of agrarian market and the fiscal mechanism have been investigated in this chapter. Also, the directions of optimizing of import-export operations and raising its rrole in the regulation of agrarian market have been identified.

In a final part conclusions and the recommendations of the author formulated by results of research are given.



Kağız formatı (210x297) ¼
Kağız №1, uçot cap vərəqi 1,0 ç.v.
sifariş № 137, tiraj 100

"Araz-M" poliqrafiya müəssisəsi

Rezoqrafiya üsulu ilə cap olunmuşdur
Gəncə şəhəri, Ş.Bahəddin küçəsi, 59

**МИНИСТЕРСТВО СЕЛЬСКОГО ХОЗЯЙСТВА**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**АГРАРНЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**НАРГИЗ ШАМИЛЬ КЫЗЫ ХАЛЫГОВА**

# СОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМА РЕГУЛИРОВАНИЯ АГРАРНОГО РЫНКА В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

5312.01 – «Отраслевая экономика»

**АВТОРЕФЕРАТ**

Диссертации на соискание научной степени
доктора философии по экономики

**Ганджа – 2014**